Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 215
(4134) CÜMƏ, 16 SENTYABR 2005-ci il

Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur

www.azerbaijan.news.az

Qiyməti 1000 manat



## Moskvanın və Bütün Rusiyanın Patriarxı II Aleksinin Bakıya səfəri

# Azərbaycanın rus icmasının nümayəndələri ilə görüş

Ölkəmizdə səfərdə olan Moskvanın və Bütün Rusiyanın Patriarxı II Aleksi sentyabrın 15-də Azərbaycanın rus icmasının nümayəndələri ilə görüşmüşdür.

İcmanın sədri Mixail Zabelin rusların ölkəmizdə necə yaşadıqlarından danışdı. O bildirdi ki, Azərbaycanda müstəqillik illərində heç bir rus məktəbi bağlanmadı, ali məktəblərdə əvvəlkitək yenə də rus bölmələri fəaliyyət göstərir, ünsiyyət sahəsində rus dilindən geniş istifadə olunur. Azərbaycanın rus icması 170 min nəfərdən ibarətdir, ölkədə beş pravoslav kilsəsi var və onların üçü Bakıdadır.

II Aleksi rus icmasının nümayəndələrinə bildirdi ki, xaricdə rus diasporunun artması ilə əlaqədar olaraq 42 ölkədə pravoslav məbədi açılmışdır. Bir vaxtlar Rusiyanı tərk etməli olmuş insanların çoxu kilsənin sayəsində özlərini doğma torpaqdan ayrılmış hesab etmir. O, Bakı və Xəzəryanı yeparxiyasının yaradılmasını Azərbaycanın müsəlman və pravoslav icmalarının nümayəndələri arasında dialoqun təşkilinə kömək edən mühüm hadisə kimi, rus icmasının olmasını isə "mədəniyyətlərin qarşılıqlı anlaşmasının mühüm amili" kimi qiymətləndirdi.

Elə həmin gün II Aleksi pravoslav Kafedral kilsəsində ibadət etdi.



# Qafqaz Müsəlmanları İdarəsinin sədri Sergi Radonejski ordeni ilə təltif edilmişdir

Sentyabrın 15-də Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Hacı Allahşükür Paşazadə öz iqamətgahında Moskvanın və Bütün Rusiyanın Patriarxı II Aleksi və onu müşayiət edən şəxslərlə görüşmüşdür.

Şeyxülislam hörmətli qonağı salamlamağa şad olduğunu söyləyərək dedi ki, işin çox olması zati-müqəddəslərinə bir ölkəyə bir neçə dəfə getməyə imkan vermir. Ancaq bu onun ölkəmizə ikinci səfəridir və biz bunu Azərbaycan xalqına, onun rəhbərliyinə böyük hörmət və respublikamızın siyasi xəttinin bəyənilməsi kimi qiymətləndiririk. Ötən gəlişində patriarx həzrətlərini ümummilli lider Heydər Əliyev, bu dəfə isə Prezident İlham Əliyev təltif etdi.



A.Paşazadə vurğuladı ki, Azərbaycan özünün dini dözümlülüyü ilə fəxr edə bilər. İndi ölkəmizdə məscidlər, sinaqoqlar, kilsələr tikilir. O, ölkəmizin ərazi bütövlüyünü və Dağlıq Qarabağ münaqişəsinin dinclik-lə həll edilməsini dəstəklədiyinə görə II Aleksiyə minnətdarlığını bildirdi.

Azərbaycan torpağında yenidən olmaqdan böyük sevinc duyduğunu bildirən II Aleksi dedi ki, ölkəmizə əvvəlki səfərini səmimiyyətlə xatırlayır. Çox xoşdur ki, indiki Prezident İlham Əliyev Heydər Əliyevin müdrik siyasətini nəinki davam etdirir, həm də onun bəhrələrini artırır. Rus Pravoslav Kilsəsi Prezidentin Azərbaycanın pravoslav icmasına, rus əhalisinə hörmətcil münasibətini yüksək qiymətləndirir.

Patriarx Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Hacı Allahşükür Paşazadəni bu vəzifədə olmasının 25 illiyi münasibətilə təbrik etdi və yüksək mükafatı - Sergi Radonejski ordenini ona təqdim etdi.

II Aleksi şeyxülislamın fəaliyyətini, bütün konfessiyaların birləşməsi sahəsində səylərini yüksək dəyərləndirdi, Bakı Pravoslav Kilsəsini dəstəklədiyinə görə ona təşəkkürünü bildirdi.

Sonra tərəflər Birgə Bəyannamə imzaladılar. Sənəddə pravoslav xristianlarla müsəlmanların, ölkələrimizin və xalqlarımızın xoş münasibətlərini daha da inkişaf etdirmək iradəsi ifadə olunmuşdur.

Rusiyanın ölkəmizdəki müvəqqəti işlər vəkili Pyotr Burdıkin Rusiyanın Azərbaycandakı səfirliyi adından A.Paşazadəni təbrik etdi və ona xatirə hədiyyəsi təqdim etdi.

Görüşdə Milli Məclisin Sədri Murtuz Ələsgərov, Baş nazir Artur Rasizadə, Baş nazirin birinci müavini Abbas Abbasov, milli siyasət məsələləri üzrə dövlət müşaviri Hidayət Orucov, Bakı və Xəzəryanı yeparxiyanın yepiskopu Aleksandr ata, Azərbaycanın dağ yəhudiləri icmasının başçısı Semyon İxiilov iştirak edirdilər.

# Səfər başa çatdı

Sentyabrın 15-də Moskvanın və Bütün Rusiyanın Patriarxı II Aleksinin Bakıya səfəri başa çatmışdır.

Hörmətli qonağı və onu müşayiət edən şəxsləri Heydər Əliyev adına beynəlxalq hava limanında Baş nazir Artur Rasizadə, milli siyasət məsələləri üzrə dövlət müşaviri Hidayət Orucov, Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Hacı Allahşükür Paşazadə yola saldılar.

***AzərTAc***
***Foto Y.Xəlilovundur***